# Bəxtiyar Aslanın yaradıcılığı: simvolizm və impressionizm qovşağında

**Bəxtiyar Aslanın yaradıcılığı modernizmin iki cərəyanının əlamətlərini özündə cəmləşdirir - simvolizm və impressionizm. Yazıçının əsərlərinin ideoloji və fəlsəfi məzmununda simvolizmdən istifadə məqamları maraq doğurur. Məhz simvolizm Bəxtiyar Aslanın əsərlərinin semantik yükünün əsas aləti kimi çıxış edir.**

Mistisizm və mifyaradıcılığı Bəxtiyar Aslanın yaradıcılığından yan keçməmiş, müəllifin əsərlərinin qəhrəmanlarının dünyasının intuitiv dərkinin açıqlanmasına şərait yaratmışdır. Bəxtiyar Aslanın yaradıcılıq prosesində dünyanın dəyişdirilməsi fikri (demiurq) əsas leytmotiv kimi özünü göstərmişdir. Bəxtiyar Aslanın əsərlərinin bədii fikir və bədii üslubunda simvolizmlə yanaşı impressionizm də özünü qabarıq şəkildə büruzə verir. Yazıçının əsərlərində bədii ifadələrin dominant bir xüsusiyyəti kimi ilk təəssüratların ötürülməsi zamanı impressionizmə müraciət etmə özünü göstərir. Bəxtiyar Aslanın əsərlərində duyğuların, hisslərin, emosiyaların təsviri, qəhrəmanların daxili həyəcan və sarsıntılarının əks olunması məhz bununla bağlıdır. Müəllifin əsərlərində kompozisiyanın parçalanması və obrazlı əlaqələrin assosiativliyi də özünəməxsusluğu ilə fərqlənir.

### *Bəxtiyar Aslan əsərlərinin*

ideoloji və fəlsəfi məzmununu açıqlamaq baxımından həyat faktına qarşı simvollardan, yəni ümumiləşdirmələrdən istifadə etmişdir. Qələmə almış olduğu əsərlərdə müəllif məhz həyat həqiqətlərini simvol dərəcəsində ümumiləşdirilməsinə üstünlük vermiş, simvollar vasitəsilə fikirlərinin sərhədsizliyini ifadə etmişdir. İctimai həyatda dəyişikliklərin baş verməsi, xüsusilə ideoloji dəyərlərin dəyişməsi, yeni demokratik idealların meydana çıxması, cəmiyyətdə gedən ictimai-siyasi proseslərin artması kimi xarakterik xüsusiyyətlər müəllifin obrazlarının təbiətində simvollar vasitəsilə özünü göstərmişdir. Bəxtiyar Aslanın əsərlərində fərdin individual yaşayışı, düşüncəsi simvollarla təsvir edilir. Müəllifin yaradıcılığında simvolizm hadisələrin predmet və ya əşya vasitəsilə əks etdirilməsi ilə diqqəti cəlb edir. Müəllif ”Aynadakı yolçuluq” hekayəsində ayna obrazı vasitəsilə fərdin düşüncəsini, öz hiss və duyğularını ifadə etməyə nail olmuşdur. Hekayədə ayna bir obraz kimi çıxış edir. Bir obraz şəklində çıxış edən ayna özü paklıq rəmzidir. Məhz yazıçı bu hekayəsində də, arzu etdiklərini, yəni xəyallarını ayna daxilində təsvir edir. Bu təsvir qısa çəksə də, müəllif qəhrəmanın keçirdiyi hisslərlə yanaşı, vaz keçmək istəmədiyi məqamlara da aydınlıq gətirməyə nail ola bilir:

**”O gümüşü aynaya çiyinlərinin üstündən məndə baxdım və bunu sən də gördün. Sən öz üzünü də, mənim üzümü də, özünə baxdığını da, mənim sənə baxdığımı da gördün. Mən sənin üzünü, üzünə baxdığını, aynada məni gördüyünü həm aynada, həm də aynadan qıraqda gördüm. Gördüm və bildim. Gördüm və bildim deyirəm. Çünki aynada görünən heç bir şeyin gerçəkdə dəyərinin olmadığını bilirəm. Sən bu üzdən mənim sənə çiyinlərinin üstündən həm aynanın içindən, həm də kənarından baxdığımı gördün sadəcə. Bunu bilmək sənin üçün imkansız idi. Sən gözəl idin və bunun fərqindəydin. Gözəldin və yalnız özünü deyil, hər şeyi aynanın içində gördün. Həyatı da öz gerçəkliyinin içində deyil, aynanın içindəki gerçəklikdə yaşayırdın.”**

### *Simvolizmin*

Bəxtiyar Aslanın əsərlərinin semantik yükünün əsas aləti kimi çıxış etməsi diqqətdən yayınmır. Belə ki, müəllif məhz bu semantik yükü ilk növbədə qələmə aldığı əsərlərin adına çıxarmaqla da nail ola bilir. Məsələn, ”Aynadakı yolçuluq”, ”Ölüm və mavi quş” və s. Bəxtiyar Aslanın ”Aynadakı yolçuluq” hekayəsinin adına çıxardığı aynanı bir obraz kimi təqdim etməsi ilə dünyanın dərk edilməsinin simvolu kimi verməyə cəhd etmişdir. Mifik dünyagörüşdə aynaya müraciət özünü bütün zamanlarda göstərmişdir. Aynadan xalqımızın təfəkküründə həm xeyir işlərində, həm də yas mərasimlərində istifadə olunması faktları mifoloji düşüncə ilə bağlıdır. Aynadan toy mərasimlərində istifadə həyatın başlanğıcı, ölüm zamanı güzgüdən istifadə həyatın sonu anlamında işlənilməsi ritualı məlumdur. Bu baxımdan, Bəxtiyar Aslanın aynanı bir obraz kimi istifadə məqamı bizə sevginin başlanğıc və bitişini açıqlayır:

**”Aynanın içində əvvəlcə bədənimin dağılaraq, əriyərək, çözülərək - ayna gerçəkliyində bu dəyişmənin başqa kəlmələrlə ifadə edildiyini, bəlkə, sən də bilirsən - işığa döndüyünü gördüm. Geri dönüb baxdıqda sənin qalxaraq boynuma sarıldığını gördüm. Həmin anda ağlımdan həmin aynanın eşiyinə çıxmaq keçdi.”**

Müəllifin ayna konsepsiyasından istifadəsi məhz simmetriya yaratması ilə diqqəti cəlb edir: başlanğıc və son. Məhz hekayədə bu iki ziddiyyətli qarşılıqlıq özünü göstərməkdədir: ”Yolun lap əvvəlində, ilk addımdaca mən aynanın içinə doğru, sən isə bayırda mənim əlimdən tutaraq geriyə doğru qaçmağa başlayanda içimdə bir cəhənnəm alovlandığını, eyni anda da içimin başqa bir yerində cənnətin ilk irmağının da sərin-sərin axmağa başladığını hiss etdim.”




### *Bəxtiyar Aslanın əsərlərində*

simvolizmə müraciət zamanı quş obrazının simvol kimi təqdim edilməsi də maraq kəsb edir. Müəllifin ”Ölüm və mavi quş” əsərinin adına çıxardığı quşun simvolik mənası olması faktı danılmazdır. Məsələn, Yunga görə, quşlar həmişə xeyirxahdırlar, çünki onlar hava elementi ilə əlaqələri olması səbəbindən yaradanın elçiləri hesab edilirlər.

Qeyd edək ki, bütün xalqların şifahi xalq ədəbiyyatında quşların ruhun simvolu kimi istifadə edilməsi danılmazdır. İnsan ruhunu təcəssüm etdirən quşların sehrli köməkçi, mesaj yəni xəbər gətirən funksiyasını yerinə yetirən yaradıcı gücə malik olan obraz olması, həmçinin ruhlar və ya mələklər obrazında çıxış etməsi özünü göstərir.

Folklorda quşların qəhrəmanların yaxın, ağıllı dost və sirdaşı olması ilə yanaşı, insan kimi danışa bilmələri faktı da mövcuddur. Hətta quşların aşiqin metaforası kimi də təqdim edilməsinin şahidi oluruq. Bəxtiyar Aslanın ”Ölüm və mavi quş” hekayəsinin adına çıxartdığı quşun mavi rəngdə təqdim edilməsi diqqəti cəlb edir. Bəxtiyar Aslanın əsərlərində ideyanın kamil təcəssümü kimi mavi rəngə müraciət türk eposlarında da öz əksini tapmışdır.

**Mavi rənglə bağlı məna daşıyıcıları olan motivlər ”Oğuz Kağan” dastanında rast gəlinir: dastanın baş obrazının üzünün mavi olması, birinci arvadının mavi işıqdan çıxması, türklərin müqəddəs kultu olan qurdun bu rənglə adı çəkilməsi və s. Qeyd edək ki, ”Ölüm və mavi quş” hekayəsində mavi quş obrazına rast gəlinməməsi ”mavi quş”un ”hava hərəkətinin nəticəsi” (Başlyar) kimi özünü büruzə verərək ideyalarla əlaqələndirilməsi kimi qəbul edilməlidir. Hekayənin sonunda verilmiş müəllifin ”bir məzar daşından yaddaşımda qalan bir-iki misranı oxuyuram. Razı qalmır. ”Mavi bir quşun qanad açması üzünün sahilindən...”, deyirəm. Bu, xoşuna gəlir.**

Bunu onun üçünmü, anam üçünmü söylədiyimi mən belə bilmirəm. ”Demək, mən ölsəm, üzümün sahilindən mavi bir quş qanad açacaq”, deyir, gülümsəyir” fikirləri zənnimizdə yanılmadığımızı, hadisələrin ideyalarla əlaqələndirməsini təsdiqləyir.

### *Müasir dövrümüzdə*

mistisizmə müraciət edən müəlliflər əsasən mənəvi həqiqətə, daha doğrusu yeni bir idrak səviyyəsinə çatmağa əsas diqqət göstərirlər. Elmdə mistik düşüncə panteizm və pananteizm deyə iki qismə ayrılmışlar. Panteizm kainatı Tanrı olaraq görməkdədir. Pananteizm isə kainatı Tanrıda, daha qısası kainatı Tanrının bir parçası olaraq görür, təbiəti məhz Tanrının bir əsəri olaraq qavrayır. Bəxtiyar Aslan da yaradıcılığında təbiəti fərdi, kainatı Tanrının bir parçası kimi verməyə nail ola bilmişdir.

**Bəxtiyar Aslan əsərlərində dolaşıq və kompleks izahat üsullarından istifadə etmiş, yəni işarələrə, mifologiyaya, əfsanələrə, mistisizmə və fantaziyalara inam göstərmişdir. Məsələn ”Qüllə” hekayəsində Yusifin xatırlanması məhz xalq yaddaşlarında, həmçinin yazılı ədəbiyyatda yer tutmuş quyuya atılmış Yusif obrazını gözümüzdə canlandırır: ”Sən bir qüllədəsən, amma mən sənə quyudakı Yusifi anladacağam” - dedi. Anladarkən Yusifin mən özüm olduğumu fərq etdim. Fərq etdim və qəbul etdim.”**

Bəxtiyar Aslan insan obrazlarını həyat faktından daha çox müəyyən ideyaların ədəbi illüstrasiyası kimi təqdim edir. Yazıçının obyektiv meyarlardan çıxış edərək bir müəllif kimi mövqeyini bildirməsi də maraq doğurur. Bir müəllif kimi həyat həqiqətlərini açmaqla oxucusunun diqqətini hekayələrinin mövzusunu daha dərindən qavramasına yardımçı olur. Onun qələmə almış olduğu ədəbi-bədii nümunələrin süjetində həyat həqiqətlərinin, təsvir edilən hadisələrin açılmasında kənar ünsürlərdən köməkçi vasitə kimi istifadə edilməsi də nəzərdən qaçmır.

### *Müəllifin qələmə aldığı*

əsərlərdəki qəhrəmanlarının dünyasının intuitiv dərki daha çox qəhrəmanların düşüncələri ilə təqdim edilmişdir. Belə ki, müəllif qələmə almış olduğu obrazın düşüncələri ilə onların dünyasının intuitiv dərk edilməsinə nail ola bilir. Məsələn, ”Mirzənin dərəsi” hekayəsində müəllif hekayə qəhrəmanının dünyasını oxucusuna aşılamağa nail ola bilir. Qəhrəmanının dünyasını açıqlamağa cəhd edən müəllif məhz qəhrəmanının keçirdiyi sarsıntıları düşüncələri ilə verir: ”... Sən, bilə-bilə, mənə heç bir şey öyrətmədən məni tərk edəcəksən. Eşqin tək yaşanacağını, ”bu yolda tək gedilir” deyərək öyrədən sənsən. Mənə bir tək bunu öyrətdin. Qışqırmadan necə yaşanacağını, ağlamadan necə eşq ağrısı çəkiləcəyini, rüsvay olmadan həqiqətin necə etiraf ediləcəyini, yaranın qanadılmadan, irinin axıdılmadan necə yaxşılaşdırılacağını, sonsuza qədər içimdə tüstüləyəcək o yasəmən və o bayğın çöl nərgizi qoxusunu duya-duya necə yaşayacağımı, o qumral gecələrin təkrarının qeyri-mümkünlüyünə özümü necə alışdıracağımı - hamısının çarəsini bildiyini bilirəm - öyrətmədən çıxıb getdin.” Bəxtiyar Aslanın təsvir etdiyi qəhrəmanın dünyasının intuitiv dərkinə cəhd ”Ölüm və mavi quş” hekayəsində də özünü göstərməkdədir: ”... İçimdən ağ bir işığın göyə doğru yüksələrək məndən uzaqlaşdığını gördüm. Hüznlü bir xoşbəxtliklə arxasınca baxdım. Geriyə, üstümə doğru qərənfillər atırdı. İşığın yüksəldiyi yerdə anamı, qollarını açmış gülümsəyən anamı gördüm. Gözlərimi son bir səylə açanda başım dizlərində idi. Yanaqlarından süzülən yaşlar üzümə tökülürdü. Beləcə səni ilk və son dəfə gözyaşları vasitəsiylə öpürdüm. Son nəfəsimi verdiyimdə anamın məzarından mavi bir quş havalandı, gəlib üzünün sahilinə qondu.”

**Yaradıcılıq prosesində dünyanı dəyişdirilməsi fikri (demiurq) Bəxtiyar Aslanın yaradıcılığının əsas leytmotivi kimi özünü göstərir. Müəllif mütərəqqi dəyişikliklər, yaşadığı cəmiyyəti deqradasiya və tənəzzüldən qorumaq üçün demiurq (yaradıcı) kimi də çıxış edir. Elə bu əsasdan çıxış edərək bir qisim problemlərə aydınlıq gətirməyə çalışır. Müəllif bəzi konfliktlərin ləğvi, onların tənzimlənməsini düşünməyə vadar edir.**

**(ardı növbəti sayımızda)**

**Salidə Şərifova**
**AMEA-nın professoru, filologiya elmləri doktoru**